# Konstitusiya və Suverenliyimiz milli iradəmizin təntənəsidir

**Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ölkəmizin müasir dövlətçilik tarixində mühüm əhəmiyyət kəsb edir. Bu təşəbbüs müstəqil Azərbaycanın hüquqi, siyasi və milli ideoloji əsaslarının daha da möhkəmləndirilməsinə, vətəndaşların dövlətçilik dəyərlərinə bağlılığının artırılmasına xidmət edir.**

**Zəfərin möhürlədiyi suverenliyimizi 2025-ci ildə "Konstitusiya və Suverenlik İli" kimi qeyd etmək, əslində, gələcək üçün bir vəsiyyətdir. Bu bizə Konstitusiyanın ruhunu, torpaqlarımızın bütövlüyünü qorumağın nə demək olduğunu şəxsən dərk etməyi, mübarizənin əsl sahiblərini unutmamalı olduğumuzu və bu müqəddəs dəyərləri gələcək nəsillərə təcrübə kimi ötürməyi tələb edir.**

Bu qərar hüquqi dövlətçilik və suverenlik dəyərlərinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Suverenlik və dövlətçilik müstəqil dövlətlərin varlığını və inkişafını təmin edən əsas amillərdir. Bu anlayışlar təkcə dövlətin hüquqi və siyasi əsaslarını deyil, həm də milli kimliyini və birliyini ifadə edir.

Azərbaycan Respublikasında suverenlik və dövlətçilik prinsiplərinin möhkəmləndirilməsi müasir dövlət quruculuğu və xalqın rifahı üçün zəmin yaradır. Ölkəmizdə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi isə bu prinsiplərin həm tarixi əhəmiyyətini, həm də gələcəyə yönəlik strateji mahiyyətini daha da ön plana çıxarır. Dövlətimizin müstəqillik tarixinin ən mühüm hadisələrindən olan Əsas Qanun məhz ulu öndər Heydər Əliyevin gərgin əməyi nəticəsində hazırlanmışdır. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə Azərbaycan Respublikası Konstitusiyasının qəbulu ölkəmizdə genişmiqyaslı qanunvericilik və məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə yol açmışdır. Əsas Qanunda cəmiyyətin inkişaf istiqamətlərini müəyyənləşdirən ideya və dəyərlər geniş şəkildə təsbit edilmişdir. Belə ki, Konstitusiyada dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması, insan şəxsiyyətinə və ləyaqətinə hörmət, insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu, siyasi sistemdə plüralizmə təminat verilməsi, ümumbəşəri dəyərlərə sadiqlik və digər dəyərlər öz əksini tapmışdır. Ölkənin Əsas Qanununun milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq Prezident Heydər Əliyev tərəfindən imzalanan 1 noyabr 1996-cı il tarixli Fərmana əsasən, hər il noyabrın 12-si ölkəmizdə Konstitusiya Günü kimi qeyd edilir.

Bu gün Azərbaycan bütün dünyada ədalət uğrunda mübarizə aparır. İnsan ədalətin təmin olunduğunu görəndə özünü daha güclü, əmin və məmnun hiss edir. Çünki ədalət həyatımızın ali dəyəridir. Amma ədalət də öz-özünə təmin olunmur. Bu məqsədə nail olmaq üçün onun naminə çalışmaq lazım gəlir. "Ədalətə çatmaq üçün sən gərək onu əldə edəsən, o, göydən düşməz. Ona görə gələcək fəaliyyətimiz üçün də bu, əsas olmalıdır" sözlərini ötən il sentyabrın 20-də Xankəndidəki Qarabağ Universitetinin açılışında Prezident cənab İlham Əliyev vurğulayaraq qeyd etdi ki, bu gün işğaldan əziyyət çəkən və ədalətsizliklərlə üzləşən bir çox xalqlar üçün Azərbaycan nümunəsi bir ümid işığıdır. Biz ərazi bütövlüyümüzə, suverenliyimizə birliyimizin gücü ilə nail olduq. 44 günlük Vətən müharibəsinin möhtəşəm tarixi, xalq-dövlət-ordu birliyi Azərbaycan cəmiyyətinin unikal monolitliyə malik olduğunu göstərdi. Birliyi daim qorumaq və gələcək nəsillərə ötürmək indi ən ümdə vəzifələrdən olmalıdır. Bunun üçün yeni nəslin milli ruhda tərbiyə alması, öz mədəniyyətinə, ənənələrinə, mənəvi dəyərlərinə sadiqlik göstərməsi, kənar təsirlərə düşməməsi, müxtəlif vədlərə aldanmaması mütləqdir.

Azərbaycan torpaqlarının işğalı XIX əsrin əvvəlində bağlanmış üç müqavilədən "Kürəkçay", "Gülüstan", "Türkmənçay" müqavilələrindən başlanır. Bu müqavilələr faktiki olaraq sonrakı işğal üçün zəmin hazırladı. Belə ki, həmin müqavilələrin imzalandığı tarixə qədər heç vaxt Qarabağ torpağında yaşamamış ermənilər İrandan və Şərqi Anadoludan kütləvi surətdə bu əraziyə köçürüldü. Beləliklə, Azərbaycanın gələcək bəlalarının əsası qoyuldu. Ermənistan və erməni alimlərinin hər zaman olduğu kimi, təhrifçiliklə yeni uydurma tarix yaratmağa çalışmalarına, öz lobbi şəbəkələri vasitəsilə müəyyən dərəcədə beynəlxalq ictimaiyyəti də çaşdırmağa baxmayaraq, Azərbaycan haqq və ədalət zəfəri çaldı. Tarixi sona qədər ört-basdır etmək mümkün deyil. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması ölkəmizin suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanır. Bu gün üçrəngli Bayrağımız Qarabağın və Şərqi Zəngəzurun hər bir guşəsində - Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Ağdamda, Şuşada, Hadrutda, Laçında, Əsgəranda, Xocavənddə, Ağdərədə, Xocalıda və Xankəndidə dalğalanır. Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir.




1993-cü ilin iyununda ölkənin təlatümlü günlərində əgər ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə rəhbərliyə qayıtmasaydı, Azərbaycan dövlətinin parçalanaraq dünya xəritəsindən silinməsi ehtimalı labüd idi. Ümummilli Liderin ölkənin gələcək taleyinə görə məsuliyyəti öz üzərinə götürməsi tarixin axarını dəyişdi. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf proseslərini uğurla davam etdirərək Prezident cənab İlham Əliyev Azərbaycanı ən güclü çağlara, xalqımızı böyük Zəfərə çatdırdı. Artıq yaşadığımız bu günlər xəyal deyil, reallıqdır, təqvimdə öz əlamətdar yerini tutmuş qürur günümüzdür. Bu günün işığında Qarabağ, Şərqi Zəngəzur yenidən qurulur, dirçəlir. Soydaşlarımız öz elobalarına qayıdırlar, doğma yurdlarında yeni həyata başlayırlar.

Prezident İlham Əliyevin bu ili "Konstitusiya və Suverenlik İli" elan etməsi Azərbaycanın dövlətçilik tarixində mühüm bir mərhələdir. Bu il ərzində görüləcək işlər, həyata keçiriləcək tədbirlər hüquqi dövlət quruculuğu, milli suverenliyin qorunması və dövlətçilik dəyərlərinin təbliği baxımından böyük əhəmiyyət kəsb edir. 2025-ci il həm Azərbaycanın müstəqilliyinin, həm də Konstitusiyasının müəyyən etdiyi hüquqi və demokratik prinsiplərin möhkəmləndirilməsi yolunda tarixi bir il olacaq. Bu təşəbbüs Azərbaycan xalqının milli ruhunu, dövlətinə olan bağlılığını və suverenliyini qoruma əzmini daha da gücləndirəcək.

*Abbas BAYRAMOV*
*Azərbaycan Respublikası Hərbi prokurorluğunun dövlət ittihamının müdafiəsi üzrə idarənin prokuroru, ədliyyə polkovnik-leytenantı*